# Bütün tədbirlər əhalinin rifahının daha da yüksəldilməsinə xidmət edir

***Qəbələ Rayon İcra Hakimiyyətinin Başçısı Səbuhi Abdullayev müntəzəm olaraq yaşayış məntəqələrində əhali ilə görüş-qəbullar keçirir. Hər görüş-qəbulun yekunu olaraq şəhər qəsəbə və kəndlərdə əhalinin təkliflərinə, xahişlərinə uyğun ümumi rifaha xidmət edən işlər görülür. Etiraf edilməlidir ki, əhalinin müxtəlif təbəqələrinin nümayəndələri ilə səmimi, dialoq şəklində keçirilən bu görüş-qəbullardan sonra yaşayış məntəqələrində həyata keçirilmiş tədbirlər nəticəsində əhalini narahat edən problemlərin əksəriyyəti öz həllini tapmışdır. Elə son iki ildə rayonun 20-yə qədər kəndini əhatə edən ən müasir asfalt yol çəkilmiş, körpülər salınmış xeyli yaşayış məntəqəsi qazlaşdırılmış, elektrik xətləri yenilənmiş, içməli və suvarma suyu ilə təminat yaxşılaşmışdır. Bu proses uğurla davam edir.***

## Soltannuxa kəndi



Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin Soltannuxa kənd sakinləri ilə görüş-qəbulu keçirilib.

Görüşdə Prezident Administrasiyası Ərazi-təşkilat məsələləri şöbəsinin sektor müdiri Rüfət Əliyev, rayonun hüquq-mühafizə orqanlarının, əlaqədar xidmət təşkilatlarının rəhbərləri və kənd sakinləri iştirak ediblər.

Görüşdə RİH-nin başçısı Prezident cənab İlham Əliyevin rəhbərliyi altında respublikamızda həyata keçirilən sosial-iqtisadi tədbirlərin icmalını verib.

Qeyd edilib ki, ölkədə həyata keçirilən uğurlu siyasətin nəticəsidir ki, bu gün Azərbaycanın hər bir bölgəsində, o cümlədən rayonumuzda geniş tikinti-abadlıq işləri aparılır–yeni yollar çəkilir, təhsil, səhiyyə müəssisələri, uşaq bağçaları tikilir, digər sosial layihələr həyata keçirilir.



RİH başçısı qeyd edib ki, ölkəmizin elə bir bölgəsi yoxdur ki, orada əhalinin güzəranının yaxşılaşmasına xidmət edən mühüm layihələr həyata keçirilməsin. O, son illər Soltannuxa kəndində də xeyli quruculuq işlərinin aparıldığını, digər kəndlərimiz kimi bu yaşayış məntəqəsinə də qaz xətti, asfalt yol çəkildiyini, məktəb binasının və uşaq bağçasının cari təmir edildiyini, hazırda isə elektrik təsərrüfatında yenidənqurma işlərinə başlanıldığını bildirib.

Səyyar qəbulda iştirak edən kənd sakinləri rayonumuzda geniş vüsət alan abadlıq-quruculuq işlərindən Soltannuxa kəndinin qıraqda qalmadığını vurğulayaraq, onlara göstərilən qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Çıxış edənlərdən Səhrab Babayev, Əbülfət Allahyarov, Dürdanə Mikayılova, Müsavər Sabitov və başqaları yeni məktəb binasının tikilməsinə, artezian quyusunun qazılmasına və təzə salınmış yaşayış massivinə qaz xəttinin çəkilməsini köməklik göstərilməsini xahiş ediblər.

Görüşdə sakinlər tərəfindən verilən təkliflərin və qaldırılan məsələlərin həlli istiqamətində aidiyyəti qurumların rəhbərlərinə tapşırıqlar verilib.

Tədbirdə iştirak edən Prezident Administrasiyasının sektor müdiri Rüfət Əliyev sakinlər tərəfindən qaldırılan məsələləri diqqətlə dinləmiş, onların həlli istiqamətində təkliflər hazırlanaraq aidiyyəti qurumların qarşısında məsələ qaldırılacağını və lazımı köməklik göstəriləcəyini bildirmişdir.

## Kürd kəndi

Rayonun Düzyengicə adlanan ərazisində yerləşən Kürd kəndinin əhalisinin əsas məşğuliyyəti əkinçilik və maldarlıqdır. Kənd təsərrüfatının bu önəmli sahələrinin inkişafı üçün ərazidə yaxşı şərait var.Vaxtilə kənddə baramaçılıq da mühüm yer tuturdu. Ötən əsrin 90-cı illərinin məlum hadisələri, xarici iqtisadi əlaqələrin pozulması bu gəlirli sahəyə mənfi təsir göstərdi. Yaxşı haldır ki, ölkə başçısının göstərişlərinə uyğun olaraq ixrac yönümlü kənd təsərrüfatı məhsullarının istehsalına o cümlədən baramaçılığa yenidən diqqət artırıldı. Kürd kənd əhalisi artıq bir neçə ildir ki, baramaçılıqla da məşğul olur və burada bu qiymətli məhsulun istehsalı ildən ilə artır.

Qəbələ Rayon İcra Hakimiyyəti başçısının Kürd kəndində keçirilən növbəti görüş-qəbulunda hüquq mühafizə orqanlarının, əlaqədar xidmət təşkilatlarının rəhbərləri, kənd ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.

Görüş qəbulu giriş sözü ilə açan RİH başçısı Səbuhi Abdullayev ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə, rayonumuzda həyata keçirilən sosial-iqtisadi abadlıq-quruculuq işləri barədə görüş iştirakçılarına məlumat vermiş, Kürd kəndinin də bu layihələrdən kənarda qalmadığını bildirmişdir. Belə ki, Kürd kəndində yeni müasir məktəb binası tikilmiş, kənd əhalisi fasiləsiz təbii qaz, elektrik enerjisi və su ilə təmin olunmuş, digər abadlıq quruculuq işləri görülmüşdür.



Görüş-qəbulda iştirak edən təhsil, səhiyyə və digər xidmət təşkilatlarının rəhbərləri kənddə görülmüş işlər və nəzərdə tutulan tədbirlər barədə məlumat vermişlər.

Kənd ictimaiyyətinin nümayəndələri adından çıxış edən Elxan Ağayev, Məhərrəm Qoçuyev, Ələm Verdiyev, Nemət Qurbanov, Əlikram Məmmədov və başqaları rayonda, kənddə sosial iqtisadı abadlıq quruculuq işlərinə,



kənd təsərrüfatı məhsulları istehsalçılarına göstərilən böyük qayğı və dəstəyə görə ölkə Prezidenti möhtərəm cənab İlham Əliyevə minnətdarlıqlarını bildirmişlər.

Çıxış edənlər eyni zamanda Qəbələ-Ağdaş magistralından kəndə gələn yolun asfatlaşdırılmasına, kənd içi eleketrik xətlərinin təmir edilməsinə, suvarma suyu ilə təminatın yaxşılaşdırılmasına, yeni yaşayış məhəlləsinə təbii qaz xətinin çəkilməsinə kömək göstərilməsini xahiş etmişlər.

Qeyd olunan problemlərin həlli üçün konkret tədbirlər müəyyənləşdirilmiş, rayon təşkilatlarının səlahiyyətində olmayan məsələlər barədə Respublika təşkilatlarına müraciət ediləcəyi bildirilmişdir.

**«Qəbələ»**

**İlkin Vəlizadə (foto).**

# Qəbul imtahanlarında qəbələli məzunlardan 34 nəfəri 600 baldan yuxarı nəticə göstərib

Bu il ali məktəblərə daxil olmaq üçün sənəd vermiş 900 nəfərədək qəbələli məzundan 485 nəfəri tələbə adını qazanıb. Qəbul imtahanlarında məzunlardan 34 nəfəri 600 baldan yuxarı nəticə göstərib.

Son illər ölkəmizdə təhsilin inkişafı ilə bağlı kompleks tədbirlərin həyata keçirilməsi, təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, müəllimlərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılan addımlar təhsilin keyfiyyətinə birbaşa təsir edən amillərdəndir.

Ali məktəblərə qəbul imtahanlarında ümumi təhsili qızıl medalla başa vuran şəhər 4 saylı tam orta məktəbin məzunu Jalə Səfərəliyeva rayon üzrə hamıdan çox - 675 bal toplayaraq, Bakı Dövlət Universitetinin hüquq fakültəsinə daxil olub. İmtahanlarda 673 bal toplayan Vəndam qəsəbə 1 saylı tam orta məktəbin məzunu Sona Pənahlı Bakı Ali Neft Məktəbinin, şəhər 2 saylı tam orta məktəbin məzunu Natiq Kərimov isə 670 bal toplayaraq, Azərbaycan Tibb Universitetinin tələbəsi adını qazanıblar.

Tədris ilinin yekunlarına görə, ümumi təhsili xüsusi nailiyyətlərlə başa vuran 4 məzun qızıl, 1 məzun isə gümüş medala layiq görülüb, 29 nəfərə fərqlənmə attestatı verilib.

**Rais RƏŞİDOV,**

**«Qəbələ»**

# Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində təlim təşkil olunub

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində “Qəbələ, İsmayıllı və Qax rayonlarında kənd təsərrüfatı və turizm sahəsində duala bənzər peşə təhsili və təlimi pilotlarının yaradılması” (ED VET) layihəsi çərçivəsində alman ekspert tərəfindən “Qarğıdalı əkininin müasir istehsalat texnologiyaları, qarğıdalının növləri ilə tanışlıq” mövzusunda təlim təşkil olunub.

Təlim nəzəri və praktik hissədən ibarət olub. Nəzəri hissədə əhatə olunan məzmun ED VET layihəsi çərçivəsində pilot peşə məktəbləri ilə müəssisələr arasında razılaşmaya əsasən müəssisələrin ərazilərində salınmış 3 nümayiş sahəsində (“Gilan Diary Farms” MMC, “Gilan Qəbələ Aqrotexservis” MMC və “Park Agro” MMC) əyani olaraq iştirakçılara çatdırılıb.

Təlimdə Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin, Qax Peşə Liseyinin, İsmayıllı Peşə Tədris Mərkəzinin mühəndis-pedaqoji heyəti ilə yanaşı, pilot ixtisaslardan seçilmiş 15 qabaqcıl tələbə də iştirak edib.

Xatırladaq ki, ED VET layihəsi Avropa İttifaqı ilə Almaniya Federal İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyi (BMZ) tərəfindən maliyyələşdirilir və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GIZ) tərəfindən icra olunur. Layihənin məqsədi Qəbələ, İsmayıllı və Qax rayonlarında 3 peşə təhsili müəssisəsində kənd təsərrüfatı və turizm sahələrində duala bənzər PTT pilotlarının yaradılması ilə peşə təhsili və təliminin cəlbediciliyini, həmçinin əmək bazarının tələblərinə uyğunluğunu artırmaqdır.

**Səfa ASLANOV,**

**«Qəbələ»**